Adımız məfkurəmizdir

7-13 iyul 2020-ci il

Türküstan

www.turkustan.info

“Arşın mal alan” erməni riyası ilə üz-üzə: ABŞ-da film çəkdilər

Bəstəkar Üzeyir bəy Hacıbəylinin 1913-cü ildə yazdığı son musiqili komediyası olan “Arşın mal alan” müəllifindən daha çox şöhrət qazanmış əsərdir. Üzeyir bəy bu əsəri Peterburqda konservatoriyada oxuduğu dövrdə yazıb. Əsərin librettosunu da özü qələmə alıb.

“Arşın mal alan”ın ilk tamaşası həmin ilin oktyabrın 25-də Bakıda H.Z.Tağıyevin teatrında baş tutub. İlk tamaşada rollarda H.Sarabski (Əsgər), Ə.Ağdamski (Gülçöhrə), Ə.Hüseynzadə (Soltan bəy), M.H.Terequlov (Süleyman), H.Hüseynov (Vəli) və b. çıxış ediblər. Tamaşanın rejissoru H.Ərəblinski olub. Əsərin librettosu daha sonra rus, gürcü, erməni, Ukrayna, belarus, ingilis, fars, türk, Çin, polyak, bolqar dillərinə tərcümə edilib.

Əsər Üzeyir bəyin sağlığında qonşu ölkələrdə oynanılıb, bir müddət sonra isə müəllifindən kənarda özünün yeni həyatına başlayıb. Qısa müddət sonra səsası okeanın o tayından – ABŞ-dan da eşidilməyə başlanılıb.

1925-ci il iyul ayının 4-də “Arşın mal alan” Parisin “Femina” teatrında tamaşaya qoyulub. Əsəri fransız dilinə Üzeyir bəyin qardaşı, mühacir həyatı yaşayan Ceyhun bəy tərcümə edib. Fransız aktyorlarının - Dervalın (Soltan bəy), Montenin (tacir Əsgər), Passaninin (Gülçöhrə), Maqalinin (Asya) oynadığı bu əsərin afişası da günümüzə gəlib çatıb.

“Arşın mal alan” İstanbulda

“Arşın mal alan”ın ən çox rəğbət gördüyü ölkələrin başında Türkiyə gəlir. Cümhuriyyət dönəmində - 1919-cu ildə Tiflis Azərbaycan teatrının Türkiyəyə qastrol səfəri zamanı İstanbulda “Leyli və Məcnun”, “Əsli və Kərəm” operaları, “Ər və arvad”, “Arşın mal alan”, “O olmasın, bu olsun” operettaları nümayiş etdirilib. Tamaşalar 17 mart və 7 may 1919-cu il tarixlərində İstanbulda Şahzadəbaşındakı “Millət” teatrında göstərilib. Qastrol “Millət” teatrında “Arşın mal alan” ilə açılıb, əsas rollarda Möhsün Sənani, Mustafa Mərdanov, İbrahim İsfahanlı, M.Kirmanşahlı və b. oynayıblar.

“Millət” teatrı ilə yanaşı, əsər İstanbulda Kadıköydə “Kuşdili”, Beyoğlunda “Tepebaşı” teatrlarında da qastrol zamanı oynanılıb. Məşhur tarzən Hüseynbala Qasımovla yanaşı, “Ertuğrul” orkestri də tamaşalarda ifa edib.

Ümumilikdə “Arşın mal alan” Türkiyədə 50 dəfədən çox oynanılıb.

“Tamaşaçılar özü ilə stul gətirirdi”

Azərbaycan SSR-nin ilk illərindən etibarən Üzeyir bəyin əsərlərinin Türkiyə həyatı davam edib. Teatr xadimi Seyfi Ələkbərov 1922-ci il qastrol səfəri ilə bağlı yazıb:

“1922-ci ilin yay ayları idi. Tiflisdən çıxıb Gümrü şəhərinə getmişdik. Burada bir neçə tamaşa verdikdən sonra Arpa çayını keçib Qars şəhərinə çatdıq. Bizim yaradıcı qrupumuzda Tiflisin azərbaycanlı artistlərindən İbrahim İsfahanlı, Əhməd Salahlı, Əli Qurbanov, Əsəd Xəlilov, Həsənov və mən, daha başqaları vardı.

Repertuarımız: “Arşın mal alan”, “O olmasın, bu olsun” operettaları və başqalarından ibarət idi. Marşrutumuz: Qars, Sarıqamış, Ərzurum və Trabzon şəhərləri. Qarsda Azərbaycan SSR konsulu İslam Hacıbəyli bizi qarşıladı və tamaşaların təşkilində bizə çox kömək elədi. Qars, Sarıqamış və Ərzurum şəhərlərində tamaşalarımız, xüsusilə “Arşın mal alan” və “O olmasın, bu olsun” çox böyük müvəffəqiyyətlə keçdi.

Repertuarımız: “Arşın mal alan”, “O olmasın, bu olsun” operettaları və başqalarından ibarət idi. Marşrutumuz: Qars, Sarıqamış, Ərzurum və Trabzon şəhərləri. Qarsda Azərbaycan SSR konsulu İslam Hacıbəyli bizi qarşıladı və tamaşaların təşkilində bizə çox kömək elədi. Qars, Sarıqamış və Ərzurum şəhərlərində tamaşalarımız, xüsusilə “Arşın mal alan” və “O olmasın, bu olsun” çox böyük müvəffəqiyyətlə keçdi.

Tamaşaçıların çoxu hər ehtimala görə teatra özü ilə stul da gətirirdi ki, bəlkə, salonda yer olmadı, bir yerdə oturub tamaşaya baxsın. Yerli mətbuat tamaşalarımız haqqında ətraflı məlumat verirdi. Tamaşadan hasil olan məbləğin müəyyən faizi o vaxtlar Volqaboyunda aclıq çəkənlərə göndərilirdi”.

Türkiyənin “Cümhuriyyət” qəzetində-ki elandan məlum olur ki, 1930-cu ilin iyulun 7-də İstanbulda Beşiktaşda “Park” teatrında “Arşın mal alan” Qafqaz operettası kimi oynanılıb.

“Cümhuriyyət” qəzetinin 12 mart 1931-ci il tarixli sayında İstanbulda “Ferah” səhnəsində “Arşın mal alan”ın oynanılacağı, tamaşanın türk dilində, Qafqaz şivəsində olacağı bildirilib. Vəli rolunu məşhur komediya aktyoru Naşit bəyin oynayacağı qeyd edilib. Qəzetin 29 oktyabr 1931-ci il sayında “Ferah” səhnəsində yenidən “Arşın mal alan”ın oynanılacağı bildirilib.

“Cümhuriyyət” qəzetinin 6 sentyabr 1945, 27 noyabr 1946, 29 aprel 1958 tarixli saylarında da “Arşın mal alan”ın oynanılacağının elanı verilib.

“Zəngəzur iddiasından daha betərdir”

Üzeyir bəyin əsərlərinin ermənilər tərəfindən səhnələşdirilməsi hələ Çar Rusiyası dönəmindən etibarən başlayıb. Bu tamaşaların bəzilərində Üzeyir bəyin özü də iştirak edib. Məsələn, “Yeni iqbal” qəzetinin 21 sentyabr 1915-ci il sayında Üzeyir bəyin özü “Musiqiçi” imzası ilə “‘Arşın mal alan’ erməni dilində” adlı məqalə yazıb. Yazıdan aydın olur ki, Mayılov qardaşlarının teatrında ermənilər əsəri səhnələşdiriblər, mətni tamamilə erməni dilinə çeviriblər, amma notları olmadığına görə Osmanlı və erməni havalarından istifadə ediblər. Sultan bəy rolunu Torosyan oynayıb, amma Üzeyir bəy yerli komik Əliəkbər Hüseynzadənin yerini vermədiyini bildirib.

Ermənilər bir çox hallarda əsərin müəlliflik hüququnu qorumayaraq, bu əsərlərdən yararlanıb, bəzi hallarda isə oğurlayıblar. Məsələn, qardaşı Ceyhun bəyə göndərdiyi 14 yanvar 1920-ci il tarixli məktubunda Üzeyir bəy ermənilərin “Arşın mal alan”a sahib çıxmasından bəhs edib:

“Bir neçə gün əvvəl İstanbul səfirimiz Yusif Vəzirovdan bir məktub aldım. Yazır ki, ermənilərin fransızca “Renesans” qəzetəsi iddia edir ki, “Arşan mal alan”ı yazan ermənidir. Yusif bu işdən çox mütəəssir olduğunu yazır və israr eləyir ki, mən əsərlərimin notlarını çap etdirib onlara göndərim ki, səfarət xərcinə olaraq Yevropada, həmən Amerikaya böylə intişarına səy etsin. Mən əhvalatı Nəsib bəyə söylədim. Dedi ki, bu iddia ermənilərin Zəngəzur iddiasından daha betərdir”.

Türkiyə qəzetlərindəki elanlardan görünür ki, bu ölkənin erməni vətəndaşları, sənətçiləri mütəmadi olaraq Üzeyir bəyin əsərlərinə müraciət ediblər.

“Cümhuriyyət” qəzetinin 16 aprel 1938-ci il tarixli sayında “Arşın mal alan”la bağlı maraqlı bir elan dərc olunub:

“Çox yaxında “Sümer” sinemasında Üzeyir bəy Hacıbəyzadənin məşhur Şərq operetası “Arşın mal alan”. Artistlərdən: Hazım, Muammer, Mahmud, Halide, Şaziye, Samiye və xanım Diraduryanın iştirakı ilə Marmara studiyasında çevrilən türkcə sözlü və musiqili operetta filmini təqdim edəcəkdir. Rejissor: Setrak Vartyan”.

Qəzetin bu sayında elanla yanaşı, “Arşın mal alan” filmi haqqında material təqdim olunub, əsərin süjetindən bəhs edilib və ermənilərin ABŞ-da çəkdiyi filmdən bir şəkil verilib. Geniş materialda Üzeyir bəyin adı çəkilməyib, qəzetin başlığında verilən xəbərdən başa düşülür ki, filmin çəkildiyi əsərin orijinalının türk dilində olduğu gizlədilib:

“Amerikadakı Qafqaz artistləri tərəfindən film halına gətirilən bu əsərin sözləri və şərqiləri məmləkətimizdə türkcəyə çevrildi”.

Ermənilər “Arşın mal alan” filmini ABŞ-da 1937-ci ildə çəkiblər. Film həmin il martın 5-dən etibarən göstərilib. Filmin rejissoru və Əsgər rolunun ifaçısı yuxarıda elanda adı yazılan Setrak Vartyan olub. Ermənilər müəlliflik hüququnu pozaraq, titrlərdə Üzeyir bəyin adını çəkməyib, afişada “Şərq əfsanəsinin motivləri əsasında” ifadəsini qeyd ediblər. Bir il sonra filmin Türkiyədə göstərilməsi “Arşın mal alan”ın uğuru kimi qəbul edilə bilər. Azərbaycan SSR-də isə film iki dəfə - 1945 və 1965-ci illərdə çəkilib. 1945-ci ildə çəkilən film SSRİ dövlət mükafatına layiq görülüb. Amma onu da xatırladaq ki, “Arşın mal alan” hələ 1916-cı ildə səssiz film şəklində çəkilib, 1917-ci il yanvarın 3-də Bakıda “Forum” kinoteatrında nümayiş etdirilib.

“Arşın mal alan”ın Türkiyə həyatı sonrakı illərdə də davam edib. Şəxsi arxivimizdə olan broşurlardan aydın olur ki, Türkiyənin Kültür və Turizm Nazirliyi tərəfindən dəfələrlə Dövlət Opera və Balet Teatrında oynanılıb.

Türkiyədə və Avropada yaşayan azərbaycanlı mühacirlər də mütəmadi olaraq Üzeyir bəyin özü və əsərləri haqqında geniş yazılar yazıblar. Məsələn, Məhəmmədəmin Rəsulzadə və Əbdürrəhman Fətəlibəyli Üzeyir bəyin vəfatı ilə bağlı yazı qələmə alıblar, legioner Mustafa Haqqı Türkəqul Üzeyir bəyin yaradıcılığı haqqında silsilə məqalələr dərc etdirib. Azərbaycan Gəncliк Dərnəyi isə “O olmasın, bu olsun” əsərini səhnələşdirib.

Oxu, oxut, abunə ol!